# Keçmişin mənəvi ağrıları, bu günlərin qələbə qüruru ilə yazılan kitab

Hacı Əkbər Rüstəmovun "Qayıt, gəl! (Döyüşçünün səngər qeydləri)" adlı kitabı işıq üzü görüb. Nəşrin redaktoru, jurnalist-yazıçı-tərcüməçi Novruz İbrahimoğlunun "Ölümün ağuşunda doğulan düşüncələr" başlıqlı ön sözdə qeyd etdiyi kimi, bu kitab müəllifin səngər qeydlərindən yaranıb.

N.İbrahimoğlu yazıb: "Türk dünyasının bir əlində qılınc, bir əlində qələm tutan qəhrəmanları çox olub. Əkbər Rüstəmov bu qəhrəmanların ardıcıl statusunu əməlləri və qəlbi ilə qazanıb. Onun gördüyü dəhşətlərdən doğan hayqırtıları toqquşan nəhəng buludların nərəsindən yaranan enerji qədər güclü və yaxşı mənada dağıdıcıdır".

Hacı Əkbər Rüstəmov Birinci Qarabağ müharibəsində Vətən torpaqlarının müdafiəsi uğrunda döyüşüb. Müəllif "Qayıt, gəl!" kitabında şahidlik etdiyi və ya iştirakçısı olduğu hadisələrdən bəhs edib.

Kitaba Hacı Əkbər Rüstəmovun "İrəli, hey irəli, milli ordu əsgəri", "Qalx ayağa, Vətən oğlu!", "Sağ ol, Babək", "Vətən", "Biz qalib gəlmək üçün vuruşurduq", "Vətəni azad etməliyik", "Hər gecə yuxuma girir Qarabağ", "Vətən yanğısı" və digər yazıları daxil edilib. Müəllifin müxtəlif illərdə qələmə aldığı bu yazılarda Azərbaycan xalqının heç zaman unutmayacağı Birinci Qarabağ müharibəsinin dəhşətləri, Vətənin müdafiəsinə qalxan igidlərimizin çətin və şərəfli mübarizəsi, o illərdə erməni cəlladlarının işğalına məruz qalan torpaqlarımızın itkisindən doğan ağrı-acılar, yurd nisgili ilə ötən illərin əzabları əksini tapıb.

"Qayıt, gəl!" kitabında yer alan son yazıya isə başqa duyğular hakimdir. 2020-ci ilin 8 noyabrında qələmə aldığı yazıda Hacı Əkbər Rüstəmov böyük sevgi ilə vurğulayır: "Hər birimiz sənin əsgərinik, əziz Azərbaycan! Ana Vətən, keçmişim, indim, gələcəyimsən! Ata ocağımsan, yurdum, yuvamsan". Keçmişin ağrı-acısını, sınaqlarını unutmayan müəllif bu günlərin qələbə sevinci, qüruru ilə yazır: "Bu neçə illərdə ağrı-acının içindən, zamanın sınağından çətinliklə olsa da iradə göstərərək mətinliklə çıxdın! Ehtiyac və ağırlığa tab gətirdin, işğal olunmuş yurd yerlərimizin azad olunduğunun şahidi olduq!"




***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

Azərbaycan. - 2023.- 12 aprel.- S.12.